Ədəbiyyat Qəzeti
ادبیات قزتی
www.edebiyyatqazeti.com
19 fevral 2010-cu il № 7 (3706) 1934-cü ildən çıxır Qiyməti 30 qəpik

# Fəxri xiyabanda xalq şairi Bəxtiyar Vahabzadənin xatirəsi anıldı




Fevralın 13-ü Azərbaycanın böyük oğlu, xalq şairi Bəxtiyar Vahabzadənin anım günüdür. Onun ölümündən bir il ötür.

Bütün türk dünyasının sevimli şairlərindən biri olan B.Vahabzadənin ölümündən bir il ötsə də, onun əziz xatirəsi unudulmur. Azərbaycan poeziyasının ən parlaq simalarından olan Bəxtiyar Vahabzadə ilə bağlı xatirələr daim ürəklərdədir. O, hər zaman xalqın içində idi. Bu səbəbdən də bütün vətənsevərlər onu sevir, ona güvənirdilər.

Bu gün də belə idi. Onunla vida günündə olduğu kimi, yenə də yüzlərlə Bəxtiyarsevər Fəxri xiyabana gəlmişdi. Anım günündə Bəxtiyar Vahabzadənin məzarı üstündə xatirə abidəsi də hazır idi. Abidə xalq rəssamı Natiq Əliyev tərəfindən hazırlanmışdır.

Mərasimdə Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə, xalq şairi Zəlimxan Yaqub və xalq artisti Habil Əliyev çıxış edərək Bəxtiyar Vahabzadənin sənətkarlığından, mənsub olduğu millətə bağlılığından, böyük həvəslə yazıb-yaratdığı bənzərsiz əsərlərdən danışmışlar.

Diqqətə çatdırılmışdır ki, Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətləri vardır. Dilimizin poetik imkanlarından məharətlə bəhrələnən şair fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmışdır. Onun mənəvi ucalıq, dünya və zaman, təbiət və insan həyatının mənası haqqında düşüncələrlə zəngin poeziyası ədəbi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır. Şairin dərin lirizmi ilə səciyyələnən sözlərinə çoxsaylı mahnılar bəstələnmişdir.

Bəxtiyar Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların və mənəvi sarsıntıların təsviri ilə yanaşı, yüksək, pak və ülvi hisslərin tərənnümü Vahabzadə dramaturgiyasında böyük məharətlə təcəssümünü tapmışdır. Onun pyesləri Azərbaycan və eləcə də xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulmuş, müəllifinə geniş şöhrət gətirmişdir.

Bəxtiyar Vahabzadə həm də tədqiqatçı alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət daim dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə Bəxtiyar Vahabzadə şəxsiyyətinin mühüm cəhətlərindən biri idi.

Bəxtiyar Vahabzadə respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir.

Bəxtiyar Vahabzadənin ədəbi-elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallarla, o cümlədən Azərbaycan Respublikasının ali dövlət təltifi olan "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Natiqlər xüsusi olaraq vurğulamışlar ki, görkəmli ədib, mahir pedaqoq, tanınmış ictimai xadim və səmimi insan Bəxtiyar Vahabzadənin işıqlı xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaqdır.

***Eşqin bir ümmandır, arzun bir aləm, -***
***Nə var ki yazmağa - beş-on qəm olsa;***
***Yazıb dərdlərini qurtara bilməm, -***
***Mənim hər kirpiyim bir qələm olsa.***

***Ömrünü ahlarla vermədin bada,***
***Arzu dəryasında bir yelkən oldun.***
***Zaman özgəsini yandıranda da,***
***Alışan o oldu, yanan sən oldun.***

***Ağladın, yayıldı səsin hər yana,***
***Bülbül bağçalarda ötdü, - dedilər.***
***Gələndə Məhəmməd gəldin cahana,***
***Gedəndə: Füzuli getdi, - dedilər.***

Bəxtiyar Vahabzadə
("Şəbi-hicran" poemasından)